Xalq Cəbhəsi
GÜNDƏLİK QƏZET
14-16 fevral 2009 29 (1721)
www.xalqcebhesi.az

# Əlvida Ustad




Azərbaycanın və bütün Türk Dünyasının böyük oğlu Bəxtiyar Vahabzadə dünən 84 yaşında vəfat edib.

"Xalq Cəbhəsi"nin məlumatına görə, xalq şairi ilə vida mərasimi bu gün Bakı Dövlət Universitetində keçiriləcək.

Şair, dramaturq, alim, publisist, ictimai xadim Bəxtiyar Mahmud olu Vahabzadə 1925-ci ildə Şəki şəhərində anadan olub. Xalq şairidir, Azərbaycan, Türkiyənin və digər dövlətlərin dövlət mükafatlarıyla, orden və medallarıyla təltif olunub.

Azərbaycan ədəbiyyatının, bütövlükdə XX əsr Azərbaycan ədəbi fikrinin görkəmli nümayəndəsi olan Bəxtiyar Vahabzadənin adı təkcə respublikamızda deyil, onun hüdudlarından çox-çox uzaqlarda tanınır. Şairin əsərləri - şer kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən ingilis, fransız, alman, fars, polyak, ispan, macar, keçmiş Sovetlər Birliyi xalqlarının dillərinə tərcümə edilib.

*ardı səhifə 2-də*

# Əlvida Ustad

## Türk Dünyasının böyük oğlu Bəxtiyar Vahabzadə vəfat etdi

(əvvəli səh.1-də)

Bəxtiyar Vahabzadə 1934-cü ildə ailəsi ilə bərabər Bakıya köçüb. 1942-ci ildə orta məktəbi bitirib, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə, 1947-ci ildə isə Universitetin nəzdində aspiranturaya qəbul olunub. 1951-ci ildə "Səməd Vurğunun lirikası" mövzusunda namizədlik, 1964-cü ildə isə "Səməd Vurğunun həyat və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, filologiya elmləri doktoru alimlik dərəcəsi alıb. Bəxtiyar Vahabzadə bədii yaradıcılığa İkinci Dünya Müharibəsi illərində başlayıb, 1945-ci ildə Yazıçılar İttifaqının üzvlüyünə qəbul olunub. Bədii yaradıcılıqla məşğul olmaqla yanaşı Bəxtiyar Vahabzadə 1940-cı ildən Universitetdə dərs deyib, 1990-cı ildə təqaüdə çıxıb. 1980-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilib. Bəxtiyar Vahabzadə 70-dən artıq şer kitabının, 2 monoqrafiyanın, 11 elmi publisist kitabın və yüzlərlə məqalənin müəllifidir. Bakı Akademik Dövlət Dram Teatrının səhnəsində onun "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya?", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı" pyesləri tamaşaya qoyulub. O, tarixi və müasir mövzuda 20-dən artıq iri həcmli poemanın müəllifidir. O, 1974-cü ildə əməkdar incəsənət xadimi adına, 1975-ci ildə respublika, 1984-cü ildə isə SSRİ Dövlət Mükafatlarına layiq görülüb. 1985-ci ildə ona Azərbaycanın xalq şairi fəxri adı verilib, 1995-ci ildə Azərbaycan xalqının milli azadlıq mübarizəsində xüsusi xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif edilib. Bədii, elmi, publisistik yaradıcılığını ictimai-siyasi fəaliyyətilə üzvi surətdə əlaqələndirən Bəxtiyar Vahabzadə 4 dəfə Azərbaycan Ali Sovetinə(1980-1995), 1 dəfə isə Azərbaycan Respublikası Milli Məclisinə millət vəkili seçilib. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, millət vəkili Qüdrət Həsənquliyev və "Xalq Cəbhəsi" qəzetinin kollektivi böyük ustad Bəxtiyar Vahabzadənin vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə, Azərbaycan xalqına və bütün Türk Dünyasına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Millətimizin başı sağ olsun!**